# Azərbaycançılıq dünənimiz, bugünümüz, sabahımızdır

Azərbaycançılıq ideologiyası elə Azərbaycanın yaşı qədər çox qədim tarixi köklərə malikdir. Tarixin qədim dövrlərindən başlamış müasir günümüzə qədər burada yaşayan xalqın adət-ənənələrini, milli-mənəvi dəyərlərini, zənginliyini özündə birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. Azərbaycançılıq xalqın və dövlətin varlığının isbatıdır. Azərbaycançılıq tarixdir, ədəbiyyatdır. Bu ideologiya "Azıx" mağarasından, yaranışının tarixi dəqiq bilinməyən "Yanar dağ"dan, "Atəşgah"dan, "Qız qalası"ndan, "İçərişəhər"dən qaynaqlanır. Azərbaycançılıq ideyası bəlkə də ilk dəfə daş salnamə olan Qobustandakı qaval daşından səslənib. Azərbaycançılıq on bir iqlim qurşağından doqquzunun mövcud olduğu bərəkətli torpağımız, əzəmətli dağlarımız, buz bulaqlarımız, meşələrimiz, çaylarımız, göllərimizdir. Azərbaycançılıq Qarabağdır, Naxçıvandır, Lənkərandır, Qubadır, Şəkidir, Bakıdır, Göyəzəndir, İlandağdır, Şahdağdır, Savalandır. Xalqımızın milli sərvətləridir. Bu ideya "Kitabi-Dədə Qorqud"dan başlayır. Bu gün dünyanın əksər ölkələrində evlərin, muzeylərin yaraşığı olan xalçalarımız da bu ideologiyanı təbliğ edir, Azərbaycanı tanıdır, sevdirir. Ecazkar səsi ilə dinləyəni heyran edən, ovsunlayan musiqi alətlərimiz, tarımız, kamançamız, nağaramızdır, sazımızdır azərbaycançılığı yaşadan, bizi ucaldan. Xalqımızın mübarizliyini, qəhrəmanlıq salnaməsini hayqıran Koroğludur, Babəkdir, Cavanşirdir, Şah İsmayıl Xətaidir...

Heç vaxt yadımdan çıxmayacaq bir hadisəni xatırlayıram. 1983-cü ildə İttifaq dönəmində Uzaq Şərqdə əsgəri xidmətdə idim. O dövrdə əsgəri xidmətdə olanlar bilirlər ki, xidmət dövründə müxtəlif xalqlar arasında qruplaşmalar, birləşmələr vardı. Hərbi hissədə hər şənbə əsgərlər üçün film göstərilirdi. Bizim hərbi hissədə kinomexanik erməni idi. Çeçenlər ermənini məcbur etdilər ki, nümayiş üçün "Babək" filmini gətirsin, əks təqdirdə, hərbi hissəyə gəlməsin. O da gətirdi. Filmə baxdıqdan sonra çeçenlərdən biri mənə yaxınlaşıb dedi ki, siz böyük xalqsınız. Çünki sizin Babəkiniz var. Sizin Heydər Əliyev kimi dahi şəxsiyyətiniz var. Babəkin yanğı ilə söylədiyi "Azadlıq" kəlməsi Heydər Əliyev kimi ən güclü dövlət xadiminin sayəsində Azərbaycanı güclü dövlətə çevirəcəkdir. Bax, bu sözləri iyirmi yaşında Azərbaycana yüksək dəyər verən, başqa xalqın nümayəndəsi olan bir gənc söyləyirdi. O zaman mənim keçirdiyim qürur hissini indi sözlə ifadə etmək çox çətindir.

Bir müddət sonra Azərbaycanda başlayan milli-azadlıq mücadiləsi və bu müstəvidə yaşadığımız faciələr həm ölkə daxilində, həm də xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşməsi taleyüklü bir məsələ kimi ortaya çıxdı. Bu məsuliyyətli və taleyüklü məsələnin həllini öz üzərinə götürən görkəmli dövlət xadimi Heydər Əliyev qısa müddətdə tarixiliklə müasirliyin tam vəhdətinə nail oldu. O bu müstəvidə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Həmin dövrdə Heydər Əliyev tərəfindən irəli sürülən azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından birini təşkil etməyə başladı.

Ümummilli liderimiz Heydər Əliyev azərbaycançılıq ideologiyasını Azərbaycan dövlətinin leytmotivinə çevirərkən, ilk növbədə tarix boyu əldə edilmiş zəngin təcrübədən məharətlə və uzaqgörən bir strateq kimi istifadə etdi. Onun azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Azərbaycançılıq vahid Azərbaycanın ideya əsası, ölkədə yaşayan xalqların həmrəylik və anlaşma içində birgəyaşayışının bariz ifadəsidir. Dil hər bir dövlətin özünütəsdiqi, varlığının inikasıdır. Bu baxımdan ulu öndərin Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin yeni azərbaycançılıq məfkurəsi ilə formalaşdırdığını xüsusi vurğulamaq lazımdır. Heydər Əliyevin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", həmçinin "Azərbaycan əlifbası və Azərbaycan dili Gününün təsis edilməsi haqqında" fərmanları böyük siyasi-tarixi əhəmiyyət daşıyır. Ulu öndər qeyd edirdi ki, Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir. Biz bunu qoruyub saxlamalıyıq, dünyaya ən yüksək səviyyədə təbliğ etməliyik: "Azərbaycanın başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur. Çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqın ümumi vətənidir. Azərbaycan sözü bizi həmişə birləşdirir".

Azərbaycançılıq ideologiyası etnik qruplara daim xüsusi təqdirolunan tolerant münasibətin göstəricisidir. Bu xalqların dini etiqad azadlığına hörmətlə yanaşmadır. Azərbaycançılıq ideologiyası məscidlərlə, sinaqoqlarla, kilsələrlə yüksək dəyər qazanır. Bu xalqlar hər zaman bir ideya ətrafında birləşdiklərini sübut ediblər. Ulu öndərimizin azərbaycançılıq ideologiyası bizə çox şey öyrətdi. Bir olmağı, birgə mübarizə aparmağı öyrətdi. Onun azərbaycançılıq barədə kəlamları bizim həyat fəlsəfəmizi təşkil etdi. Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı yaşatmalıyıq, - deyirdi ulu öndər.

Bəli, biz azərbaycanlıyıq, Dədəm Qorqudun söylədiyi kimi, olmuşuq, oluruq, olacağıq. Bu gün azərbaycançılığın ən böyük təbliğatı müstəqil Azərbaycandır. Onun gündən-günə inkişafını təmin edən, xalqın rifahını yaxşılaşdıran əldə etdiyi uğurlardır. Azərbaycanın beynəlxalq nüfuzunun artmasıdır. Azərbaycançılıq "Əsrin müqaviləsi" adlanan Bakı-Tbilisi-Ceyhan boru kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti - tarixi İpək Yolunun bərpasıdır. Azərbaycanın söz sahibi olduğu möhtəşəm qlobal transmilli layihələrin reallaşdırılmasıdır.

Ulu öndərimizin siyasi kursunu yeni çağırışlara cavab verən titanik fəaliyyəti ilə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev azərbaycançılıq və vətənpərvərlik məfkurəsini daha da şaxələndirmiş, gücləndirmişdir. Möhtərəm Prezidentimiz bəyan edir ki, "Mənim dünya görüşüm belədir, mənim fəlsəfəm belədir: Mən Azərbaycanı müasir dövlət kimi görmək istəyirəm. Zəngin, iqtisadi cəhətdən möhkəm, siyasi cəhətdən azad, müasir, dünyaya açıq, əməkdaşlığa hazır, öz mövqeyini müdafiə edən, qüdrətli ordu potensialına malik olan, öz ərazi bütövlüyünü bərpa edən ölkə kimi görmək istəyirəm və bu yolda əlimdən gələni edəcəyəm. Məni bu yoldan heç kim və heç nə döndərə bilməz!". Onun azərbaycançılıq fəlsəfəsi hər birimizi uğrunda ölən varsa, Vətəndir dediyimiz Azərbaycan naminə birliyə, mübarizliyə çağırışdır. Bu gün azərbaycançılıq ideologiyasının uğuru aprel döyüşləri, işğal altında olan torpaqlarımızın azad olunmasının ilk addımları olan "Lələtəpə" yüksəkliyində dalğalandırılan üçrəngli bayrağımızdır. Mübariz İbrahimovun qəhrəmanlıq zirvəsidir. Elə bir Milli Qəhrəman ki, adı qardaş ölkə Türkiyədə hərbi mövzuda çəkilən filmlərdə iftixarla səslənir, döyüşə gedən əsgərlərə onun rəşadətindən danışıb, ruhlandırırlar.

Bu gün dünyanın müxtəlif bölgələrində baş verən xoşagəlməz hadisələr fonunda Azərbaycanda müşahidə olunan dinamik inkişaf, sabitlik, cəmiyyət həyatının ahəngdar ritmi bizim mühüm milli nailiyyətimizdir. Azərbaycanın düşünülmüş, müstəqil daxili və xarici siyasəti dövlətimizi və xalqımızı qlobal aləmdə baş verən bütün problemlərdən sığortalayır, milli birliyimizi, həmrəyliyimizi daha da gücləndirir. Azərbaycançılıq ideologiyasının ən böyük təntənəsi Azərbaycanın mötəbər tədbirlərə, nüfuzlu idman yarışlarına ev sahibliyini yüksək səviyyədə təşkil etməsidir. Azərbaycançılığın bariz nümayişi Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Eurovision" mahnı müsabiqəsində uğurumuzdur. Azərbaycan idmançılarının şərəfinə dünya və Avropa, Olimpiya yarışlarında ucaldılan bayrağımız, səsləndirilən dövlət himnimizdir. Azərbaycançılıq ideologiyasının uğuru keçmişimizə, tarixi və mədəniyyət abidələrimizə, musiqimizə sahib çıxmağımız, qoruyub yaşatmağımızdır. Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidməti sayəsində Muğam sənətimizin YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsidir. Azərbaycançılıq ideologiyasının ən gözəl tərənnümü virtouz sənətkar Müslüm Maqomayevin ifa etdiyi möhtəşəm "Azərbaycan" mahnısıdır. Böyük sənətkarımız Rəşid Behbudov, Zeynəb Xanlarovadır. Qara Qarayevdir, Fikrət Əmirovdur, Niyazidir, Tahir Salahovdur, Toğrul Nərimanbəyovdur, Səməd Vurğundur.

Bu il Şərqdə ilk Demokratik Cümhuriyyətin yaranmasının yüz illiyi qeyd olunur. Bu cümhuriyyətin varisi olan müstəqil Azərbaycan dünyanın hər yerində yaşayan bütün soydaşlarımızın qürur mənbəyidir. Onların birliyini, həmrəyliyini gücləndirmək müasir azərbaycançılıq ideologiyasının əsas məqsədidir. İnamla demək olar ki, Azərbaycan dövlətinin, möhtərəm Prezidentimizin həyata keçirdiyi işlər sayəsində milli diasporumuz vahid ideya ətrafında birləşərək Azərbaycanın haqq səsini dünyaya çatdırmaq istiqamətində mühüm işlər görür.

Azərbaycançılıq ideologiyası vətəndaş olaraq hər birimizdən əməli fəaliyyət gözləyir. Bu ideyanın uğuruna töhfəmizi verməliyik.

**Mustafa MUSTAFAYEV,**
**"Respublika".**

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*